# HAQQIN SEVDASINA BƏLƏNMİŞ DUYĞULAR

## (Şair Minarə Sığnaqın "Haqqın sevdası" kitabı haqqında düşüncələr)

**Müasir poeziyamızda Tanrı sevgisini, mənəvi dəyərləri, yurd həsrətini, məhəbbət, həsrət, vətənpərvərlik duyğularını bədii sözün aynasında canlandıran, poetik sözə səmimi ovqatla xidmət göstərən istedadlı şairlərdən biri Minarə Sığnaqdır. Onun "Şur" nəşriyyatında yüksək poliqrafik tərtibatda, nəfis şəkildə işıq üzü görən kitabi "Haqqın sevdası" adlanır. Bu poetik toplunun redaktoru və "ön söz"ün müəllifi görkəmli şair Musa Ələkbərlidir. O, Minarə Sığnaq haqqında yazır: "Minarə xanım respublikamızın müstəqilliyindən qürurlanır, azadlığımızın qədrini bilməyə, bayrağımızın ucalığını, möhtəşəmliyini qorumağa çağırır, eyni zamanda itirilən torpaqlarımızın, ələlxüsus da gözəl Qarabağımızın itkisinə dözə bilmir, ölməz şəhidlərimizin qəbri üstündə göz yaşı tökə-tökə: "Alın Şuşamızı" - deyə xalqımızı döyüşə səsləyir, haray qoparır.**

Onun şeirləri qafiyəsi, təqti, bölgüsü, nizamı ilə də özünəməxsusdur, bəzən də heç bir qayda-qanun gözləmir, elə ürəyi necə deyirsə, eləcə də yazır.

O, azadlığa şeir, şeirə isə azadlıq kimi baxır. Duyğuları intəhasız, söz-söhbəti yetərincədir".

Şairin bu maraqlı poetik dünyasının mahiyyətinə güzgü tutmaq könül oxşayır.

Onun poeziyasının əsas mövzusu milli-mənəvi, bədii-fəlsəfi dəyər, vətənpərvərlik düşüncəsi, ata-ana sevgisi, həmçinin ləyaqətli insan şəxsiyyətinin səmimi və obrazlı tərənnümü, bununla yanaşı, əzəmət və gözəlliyin, həssaslıq və qayğıkeşliyin təbliğidir.

Şairin əsərləri bədii məziyyətlər, poetika baxımından nəzəri cəlb etməklə bərabər, həm də məxsusi yaradıcılıq fəaliyyətinin xüsusiyyətləri ilə də maraq doğurur. Səmimi ahəngdarlığı, rəvanlığı ilə seçilən şeirləri vətəndaşlıq möhürü ilə təsdiqlənərək, xalqın ruhunu oxşayan şair dəstxəttini müəyyənləşdirir və geniş oxucu sevgisinin ünvanına çevrilir.

Müəllifin bu kitabına toplanmış poetik nümunələr istedadlı şair düşüncəsinin bədii müstəvidə əyaniləşməsidir. Minarə Sığnaqın şair kimi fərdi yaradıcılıq manerasını səciyyələndirən önəmli xüsusiyyət onun poetik duyğularının səmimiyyəti və dolğunluğudur.

Şairin müxtəlif mövzularda yazılan şeirlərini həyat hadisələrinə fəlsəfi baxış, xeyirxahlıq duyğularının təbliği, saf sevgi kimi amillər birləşdirir. Bütün bu məziyyətlər Minarə xanımın sözə məsuliyyətlə yanaşmasının nəticəsi olmaqla bərabər, həm də sənətə dərindən yiyələnməsinə zəmanət verir.

Şairin ədəbi uğurunu şərtləndirən cəhətlərdən biri də onun qələmə aldığı mövzuların mahiyyətinə dərindən vara bilməsi, gördüyü problemlərin səbəbini araşdırmasıdır.

Milli-mənəvi dəyərlərimizə bağlılığı, milli özünüdərk mövzularına vaqif olması diqqətdən yayınmır. Onun şeirlərində yalnız milli ağrılarımız göstərilmir, həm də bu bəlaları doğuran səbəblər bədii sənət güzgüsündə

işıqlandırılır. Minarə xanımın poetik nümunələrində Allah, müqəddəslər, Vətən, insan, təbiət və zamanla bağlı fikirlər, düşüncələr təqdim olunan mahiyyətin mühüm tərkib hissəsi kimi üzə çıxır. Bu şeirlərdə məxsusi bir duyğu aləmi var. Lirik, kövrək və bədii-fəlsəfi mahiyyəti özündə ifadə edən misralar maraqlıdır.

**Borc verdilər bizi dünyaya**
**Duysunlar deyə.**
**Borc istəyirlər**
**bizdən, verdiyi borc.**
**Dünyada nə var borcdur,**
**Verin getsin.**
**Günləri güllər kibi**
**Qoxlayın getsin.**
**Toxdanma anı,**
**Toplanma anı,**
**Borcun sayı-sanı,**
**Ölçü biçidə**
**Mizan tərəzisi**
**Borcu böləcək,**
**Artıq-əskiyi**
**Sizə deyəcək**
**Qorxmayın, verin borcları.**



Bu şeir sairin poetik düşüncəsinin bədii-fəlsəfi qatlarını ehtiva edir. Hər misrada çırpınan duyğunun səmimi və kövrək ovqatı duyulur.

Həyatin yaratdığı təbəddülatların, insanın daxili aləmində baş verən "zəlzələlərin", poetik müstəvidə özünü axtarmaq cəhdlərin bədii mahiyyəti onun yaradıcılıq kredosunun əsasını təşkil edir. Özünəməxsus obrazlar yaratmaq bacarığı, sözü yerində və ustalıqla işlətmək məharəti, həmçinin sadə deyimlə zəngin poetik məna ifadə bilməsi onun səmimi şairlik xüsusiyyətini əyaniləşdirir. İstedadlı şairin daxili aləminin bədii mənzərəsini əks etdirən misralar diqqət çəkir.

**Açıldı sabah,**
**Açılmadı nə qaş, nə qabaq,**
**Həmişə haqqı de,**
**Olma nahaqq,**
**Arzu et açılsın gələn sabah,**
**O sabah bu sabahın davamıdır.**
**Əzizim, gəz dolaş dünyanı,**
**Fikirlər çəkməyin faydası yox.**
**Mənim sənin kimisi çox,**
**Boş ver, Allah bilən yaxşıdır.**

Kitabdakı şeirlərin önəmli məziyyətlərindən biri də vətənpərvərliklə yanaşı, insanın mənəvi dünyasının, hisslər, duyğular aləminin həssas və zərif ifadəsidir. Bu poetik nümunələrdə dərin və saf bir sevginin, hicran və həsrət qoxulu ömrün səmimi tərənnümü diqqəti cəlb edir. Lirik qəhrəmanın yaşadığı yurd ağrısının dərinliyi ilə bərabər eşqin ucalığının, qüdrətini daha parlaq və gözəl ifadə etmək üçün istifadə olunan bədii təsvir və ifadə vasitələrinin təravəti şairin poetik bacarığının təzahürüdür. "Şəhid" şeiri Minarə xanımın vətənpərvərlik duyğularının inikasıdır.

**Tabutuna sığmayan**
**Nə biləydin ölüm ağ olacaq üzünə,**
**Heç düşməzdin düşmənin izinə,**
**Vətən gedib, can da getdi,**
**Şəhid izi, düşdü izinə**
**Analar-bacılar çox döydü dizinə.**
**Ölüm arsız, şəhid yarsız,**
**Vay cavan, ay cavan,**
**Yanan olduq, yanan,**
**Talan olduq, talan,**
**Varmı bu dərdə yanan**
**Anan, bacın ölsün,**
**Şəhid balam!!!**

Şairin poetik əsərlərinin lirik qəhrəmanının məxsusi xarakteri diqqətdən yayınmır. Onun düşüncələrinin poetik vüsəti, təkcə qələmə aldığı şeirlərin üslübunda deyil, həmçinin hadisələrə yanaşmasında, onları seçməsində və qiymətləndirməsində, lirik "mən"in daxili ovqatını, təravətli, həm də səmimi çalarlarla diqqətə çatdırmaqdadır.

**Aşıq, elə çal sazı sim himdən inciməsin,**
**Elə sev, elə əzizlə, sim simdən inciməsin.**
**Sazın simi nələr deyər,**
**Oğlan qızı görüb sevər,**
**Elə sev, simi sevib seçən inciməsin.**

O, zəngin ədəbi dilimizin çox çeşidli və maraqlı təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların poetik ümumiləşdirməsini özünəməxsus ruhda təqdim etməyi bacarır.

Minarə Sığnaq yaradıcılığında özəl bir məziyyət var. Bu məxsusiliyi önəmsəyən xüsusiyyət geniş və dərin mənada sadəlikdir, həmçinin bu sadəlikdə bədii təravət və poetik rəngarənglik maraq doğurur. Onun şeirlərinin məğzini təşkil edən dərin, poetik ictimai məna uğurlu yaradıcılıq mundəricəsinə vəsilə olur.

Şairin lirikasında ayrılıq, intizar və kədər motivlərinin çoxluğu yeknəsəklik yaratmir, onun poetik kədərində bir ovuc isiq var.

Kitabdakı şeirlərində vətənin, valideyn-övlad məhəbbətinin, doğma ocağın tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği yaddaqalan ovqat asilayir.

Böyük İslam fəlsəfəsinə, müqəddəs əhli-beyt məktəbinə sidq ilə könül bağlayan, klassik poeziyaya vaqif olan, inancli şairlərdəndir Mınarə Sığnaq...

Onun poetik nümunələrində ilahi eşq xüsusi önəm daşıyır. O, şeirlərində Allahtəalanın, müqəddəs imamların adlarını çəkərək, onlara bəslədiyi nəhayətsiz məhəbbətini misralarda təcəssüm edir. Şairin poetik özəllikləri sırasında diqqət çəkən məqamlardan başlıcası odur ki, qələmə aldığı mövzularda hər mətləbi eşqlə əlaqələndirməyi, aydın, sadə dillə fəlsəfi məna ifadə etməyi bacarır.

Minarə Sığnaq yaradıcılığında dini-ilahi mövzular məxsusiliyi, bədii sanbalı, poetik təravəti ilə seçilir. Müqəddəslər haqqında yazdığı əsərlər diqqətəlayiqdir. İmam Əliyə (ə.s.) həsr etdiyi şeir bədii siqlətinə görə böyük əhəmiyyət kəsb edir. Bu yaradıcılıq nümunələri dərin etiqad və səmimiyyətlə yazıldığı üçün ürəklərə yol tapır.

**Böyüdüm adınla, xofunla,**
**Ucalıram səni çağıranda.**
**Adın çəkilən "Haça qaya" da**
**Gör eşidilirmi mənim fəryadım**
**Ucadan ucadır sənin adın,**
**Qurbanam adına, yet dadıma.**

O, dolğun bədii təsvir və ifadə vasitələrindən məharətlə bəhrələnərək, islamın fəlsəfi dəyərlərini poetik gözəlliklə tərənnüm etməyi bacarır və bu onun şair istedadının, mənəvi dünyasının, əxlaqının yetkinliyindən xəbər verir.

Diqqətəlayiq haldır ki, bu seirlerinin keyfiyyət göstəriciləri poetik özəlliyin məna zənginliyinin, sənətkarlıq məziyyətlərinin əsas atributları kimi geniş maraq doğurur.

Şair təşbeh, məcz, istiarə və s. qüvvətli poetik komponentlərindən məharətlə istifadə edərək, öz bədii təfəkkürünün genişliyini, fəlsəfi mətləbləri ehtiva etmək bacarığını da sərgiləyə bilir.

Minarə Sığnaq yaradıcılığında hürufizm elementləri də öz poetik-fəlsəfi çalarlarını göstərir. "Məni" şeiri bu mahiyyətə uyğundur.

**Axtarıb aradığın**
**mən deyiləm,**
**Gülmürəm heç vaxt**
**"şən" deyiləm.**
**Mən o mən deyiləm,**
**Arama, arama məni.**

Minarə xanimin poetikasinda İslami dəyərlərə dərin sevgi, islam fəlsəfəsinin poetik-fəlsəfi qatları bədii sözün aynasında məharətlə işıqlandırılır.

Bu poetik nümunələri mövzusundan asılı olmayaraq daxili bir bədii məntiq, ümumi bir məna birləşdirir. Müəllifin şeirlərində insana inam və etibar motivi güclü olduğu üçün, bu məziyyət poetik nümunənin bədii siqlətinə nikbin əhvali-ruhiyyə, işıq və hərarət qatır.

Minarə xanımın rəvan və təbii üslubu, şeirlərinin vəzn, bölgü, qafiyə və poetik strukturun digər elementlərindən məharətlə istifadə etmək bacarığı onun yaradıcılıq kredosunu şərtləndirən keyfiyyət kimi önəmli səciyyə daşıyır. Poetik yükündən bədii mahiyyətindən asılı olmayaraq, şairin bütün şeirlərindən vətəndaşlıq sevgisi boylanır, , halallıq qoxusu duyulur. Bu bədii nümunələrdə fərdin insanlıq borcunun və ləyaqətinin vicdanla, ədalətlə, namusla icrası məsələsinə böyük diqqət göstərilir. Məhz bu önəmli xüsusiyyətlər onun şeirlərinə ictimai dərinlik, məzmun dolgunlugu asilayir. Sairin bir çox şeirlərinin ifadə tərzindəki məxsusilik, incə lirizm, sakit və təmkinli ahəng, bədii-ictimai düşüncələrin doğurduğu poetik sanbal onun yaradıcılıq fərdiyyətinin keyfiyyət indeksidir..

Məlumdur ki, lirik əsərlərdə yenilik ruhu o vaxt diqqət kəsb edir ki, orada həyati müşahidə bədii materialın, poetik obyektin yeni cizgilərinə, görünməmiş tərəflərinə nüfuz etmiş olur. Mınarə Sığnaq şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Sairin poetik dünyagörüşünün səciyyəvi xüsusiyyəti onun müasirliyidir. O, müasir həyatımızın təzadlarını - insanlara səadət bəxş edən məqamlarını, həmçinin, insanları əzab məngənəsində sıxan anları poetik məzmunda ehtiva edərək, onu təzə bədii rənglərlə dolğunlaşdırır.

Minarə xanımın şeirlərində milli kolorit özünəməxsus təqdimatına görə maraqla qarşılanır. Bəllidir ki, şeirimizdə qoşma janrı həmişə öz xəlqiliyini və müasirliyini qorumusdur.Bu janrdaki şirinlik, axıcılıq, səmimiyyət və sadəlik məzmunun dolğunluğuna dəlalət edərək, həmişə önəm kəsb edib.

(ardı 13-cü səhifədə)

(əvvəli 12-ci səhifədə)

# HAQQIN SEVDASINA BƏLƏNMİŞ DUYĞULAR

## (Şair Minarə Sığnaqın "Haqqın sevdası" kitabı haqqında düşüncələr)

Şair klassik qoşmanın ən yaxşı xüsusiyyətlərindən, məzmun vəhdətindən, obrazlılıqdan məntiqi ardıcıllıqdan, dil və ifadə oynaqlığından məharətlə istifadə edir, lakin dediyim kimi, dekonstruktiv elementləri unutmur. Minarə Sığnaq dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən ustalıqla bəhrələnərək, mövzunun bədii həllini, poetik ümumiləşdirməni məxsusi ovqatda təqdim edə bilir.

Özüm də bilmədən ona vuruldum,
Axar sular təki axıb duruldum.
Yolun gözləməkdən yaman yoruldum,
Onunçün darıxdım, lap çox darıxdım.

Qoşma lakonikdir, yığcamdır, şairi sözə məsuliyyətlə yanaşmağa, sözə qənaət etməyə məcbur edir. İstedadlı şair qələmində qoşma mənalı, ahəngdar musiqiyə, gözəl nəğməyə çevrilir. Minarə Sığnaq poeziyasının özəl və ümdə xüsusiyyətlərindən ən baslıcası odur ki, müəllif ənənəvi janrları dekonstruksiya edərək öz dəst-xəttini yaratmaqla məşğuldur. Onun yaradıcılığında belə poetik nümunələr çoxdur.

**Dərdin minib boynuma,**
**Ellər gələcək toyuma.**
**Havama oynaya bilməsələr də,**
**Mərəkəmdə ağlayacaqlar**
**Dərd üstündən verilib dərdim,**
**Ağırdı bilirəm**
**hara sərim?**

Bu məharət onun dilimizin, ədəbi və tarixi irsimizin özəllikləri ilə dərindən maraqlanmasından xəbər verir. Onun bədii dili xalq poeziyasından ,folklorumuzdan "Dədə Qorqud" boylarından qaynaqlanır.

Yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, fəallığı mühüm əhəmiyyət kəsb edir. Poetik nümunələrində təqdim olunan inam, xeyirxahlıq və s. ali insani keyfiyyətlər onun yetkin vətəndaşlıq və kamil insanlıq qayəsinin bədii ifadəsidir. O, insan mənəviyyatının qüdrət və gözəlliyini tərənnüm edəndə də, doğma yurdu vəsf edəndə də, elin adət-ənənələrindən, valideyn sevgisindən yazanda da kolorit zənginliyi diqqəti cəlb edir.

Şair bəzən bir bənddə lakonik poetik detallarla oxucu xəyalında orijinal lövhələr canlandıra bilir. Onun bir sıra şeirlərində mürəkkəb psixoloji vəziyyətlər, anlar və duyğular, hisslər aləmi çox zərif və dəqiq ifadəsini, bədii həllini tapmışdır. O, bədii dilin estetik gözəlliyinə, emosionallığına məsuliyyətlə yanaşaraq, məzmuna uyğun forma rəngarəngliyindən səriştəylə istifadə etməyi bacarır Minarənin yaradıcılığında mənəvi-əxlaqi zənginliyin harmoniyası vardır. Bu mənada o, daim inkişaf edən, həm forma və məzmun əlvanlığı, həm də poetika baxımından kamilləşən bir istedadın sahibidir.

Hər bir şair kitabdan-kitaba öz yaradıcılıq dünyasını zənginləşdirməli və yeni poetik ovqatı ilə oxucu marağını qazanmalıdır. Poetik topluların başqa bədii kitablardan fərqli cəhətləri də var. Ən başlıca məziyyət odur ki, bircə şeirlə də müəllifin poetik istedadını, təfəkkürünün dərinliyini görmək mümkündür. Bəzən bir şeir bütöv bir yaradıcılığın, bir şair taleyinin poetik indeksinə çevrilir və bu uğur müəllifə şöhrət gətirir. Şeirin bədii səviyyəsini ifadə edən elementlər sırasında başlıca məharət müəllifin qələmə aldığı mövzuya yanaşmada öz poetik məharətini sərgiləyə bilməsidir. Digər ədəbi janrlar kimi şeirdə də bədii ümumiləşdirmə səriştəsi şairin sanballi əsərlər yaratmaq bacarığının təsdiqidir. Əslində mahiyyət baxımından ədəbiyyatda bütün mövzular istifadə olunmuşdur. Amma məharətli qələm sahibləri, "işlənmiş" mövzulara da öz poetik qüdrəti ilə təzə nəfəs verə bilir, məhz poetik ruhun canlılığı, təravəti şairin özünəməxsusluğunu şərtləndirən amillərdən sayılır.

Bədii ədəbiyyatın, bütövlükdə sənətin mahiyyəti dəyərli ideyanın, dolğun fikrin obrazlı ifadə olunmasındadır. Bu xüsusiyyətlər şairdən, söz əhlindən poetik sözün məna çalarlarını, dilin incəliklərini duymağı, bədii vasitələr sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı məqsəd kimi qarşıya qoyur.

Bu vacib məziyyətlər Minarə Sığnaqın şeirlərində öz əksini tapmışdır.

**İstedadlı şairin bu şeirlər toplusunu onun yaradıcılıq nailiyyəti kimi dəyərləndirmək olar. Ona uğurlar diləyirəm!**

**Balayar Sadiq**